

# Xeyrin şər üzərində Qələbəsi

**Elə dəqiqələr, saatlar, günlər var ki, onların izi yaddaşımızın ən dərin qatlarına kimi işləyir. Təkrar-təkrar xatırlayırsan, amma bitmək bilmir, sanki hər anının nütfəsində bir ömrün yükü yatır. Bir qərinə daşıyır hər dəqiqə fitrətində. Hər saat yüz ilə meydan oxuyur, hər gün min illik tarixə ayna tutur.**

Beş il keçir, lakin mən hələ də az qala hər gün sentyabrın 27-ni xatırlayıram...

Bəzən mənə elə gəlir ki, yaşadığımız zaman kəsiyinin sərhədlərinə sığmayan, bətnində iki əsrin arzularını daşıyan sevincin, xoşbəxtliyin ağırlığından - hələ də sentyabrın 27-dən başlayan və bizi Zəfərə, suverenliyimizin tam təmin edildiyi günə aparan yolun nə qədər böyük bir məna yükü daşıdığının fərqində deyilik.

44 gün ərzində 200 ildən çoxdur ki, Azərbaycan və bütövlükdə Cənubi Qafqaz, Türkiyə, Türküstan və indiki İran ərazisinin bir hissəsində ağlasığmaz cinayətlər, qətliamlar törədən, yerli xalqları etnik təmizləməyə məruz qoymaqla tarix boyu mövcud olmayan "dənizdən-dənizə Ermənistan" yaratmaq istəyən xəstə, ifrat millətçi təfəkkürə ölümcül zərbə vurduq, faşizmdən daha dəhşətli və daha qədim olan hayizmi, armenizmi tarixinin ən böyük məğlubiyyinə uğratdıq.

Özündə irqçiliyin ən qəddar elementlərini daşıyan erməni millətçiliyinin tarixi, ifrat millətçiliyin, armenizmin özünü XX əsrin birinci yarısında Almaniyada büruzə verən faşizmdən daha qədimdir. Bunun üçün sadəcə tarixə nəzər salmaq, Sosial Demokrat Hnçak partiyasının 1886-cı, Daşnaksütyun (Erməni İnqilabi Federasiyası) partiyasının isə 1890-cı ildə yaradıldığını xatırlatmaq yetərlidir. Alman Nasional Sosialist Fəhlə Partiyası 1920-ci ildə, Hnçak və Daşnaksütyundan 30-34 il sonra elan edilib. İdeoloji baxımdan hər 3 partiya arasında bənzərlik olsa da, həm erməni ifrat millətçiləri, həm də alman faşistləri üçün sosializm örtüyü ətraflarına daha geniş kütlələri cəlb etmək, gerçək məqsədi - radikal irqçiliyi gizlətmək üçün istifadə olunub.

Məsələn, həm Hnçakın, həm də Daşnaksütyunun nizamnaməsində marksizm ideyalarına istinad olunur, amma silahlı dəstələrin təşkili, hakimiyyət nümayəndələrinə qarşı terror aksiyaları, dövlət idarələrinin dağıdılması və talan edilməsi təbliğ edilir. Halbuki nə marksizmdə, nə Platondan başlayaraq utopist sosialistlərədək sol ideyaların ilkin və sonrakı təzahürlərinin heç birində zorakılıq, xaos, terror, talan, soyğunçuluq məqsədə çatmaq üçün vasitə sayılmır.

Alman faşizmi Fridrix Nitşenin fövqəlinsan konsepsiyasını irqçiliyin fəlsəfi əsasları kimi təqdim etməklə, özünə ideoloji söykəncək axtardığı kimi, ondan öncə yaranan erməni millətçi təşkilatları da marksizmdən erməni Qriqoryan kilsəsində formalaşan qanlı hayizm-armenizm ideyasını pərdələmək üçün istifadə edirdilər.

Gerçəklikdə isə alman faşizminin irqçi ideyalarını Martin Haydeqqerin "Metafizikaya giriş", Alfred Rozenberqin "XX əsrin mifi" ("Der Mythus Des 20 Jahrhunderts") və "Qan və Qürur" ("Blut und Ehre") əsərləri təşkil edirdi.

Birinci Dünya müharibəsindən öncə Osmanlı Türkiyəsinin və çar Rusiyasının zəifləməsindən, daha sonra isə süquta uğramalarından istifadə edən erməni Qriqoryan kilsəsi, erməni ifrat millətçi təşkilatları məhz ilkin faşizm ideyalarını əsas götürərək, türklərə, yəhudilərə, "Rusiya tatarları"na qarşı qanlı cinayətlər törədirdilər. Qeyd edim ki, Hnçak, Daşnaksütyun və Alman Nasional Sosialist Fəhlə partiyasının ortaq cəhətlərindən biri də, hər üç təşkilatın yəhudilərə və "Rusiya tatarları"na qarşı nifrəti təbliğ etmələridir. Erməni ifrat millətçiləri ilə alman faşistləri arasındakı "mənəvi qohumluğun" izlərini Nasional Sosialist Fəhlə Partiyasının Almaniyada hakimiyyətə sahiblənməsindən sonra daha qabarıq şəkildə görmək mümkündür. 1936-cı il, sentyabrın 17-də, ABŞ-də "Daşnaksütyun" partiyasının nəzarətində olan "Ayrenik" qəzetində dərc olunan məqalədə deyilir: "Birinci Dünya müharibəsində məğlub olan, milli birlik, həmrəylik problemi yaşayan Almaniyanın qeyri-müəyyən, dolaşıq siyasəti onu heç yerə aparmırdı... Adolf Hitler hakimiyyətə gəldikdən sonra almanların qəlbindəki irqçi hisslərə toxunmaqla məğlubiyyət əhvali-ruhiyyəsinə son verdi...

Almaniya Birinci Dünya müharibəsindən sonra heç vaxt Hitler hakimiyyətində olduğu kimi real, planlaşdırılmış siyasət yürütməyib. Alman düşüncəsi heç vaxt indiki qədər belə ifadəli, dəqiq və zəngin olmayıb. Xaricilərin Hitler və faşizm haqqında nə deməsindən asılı olmayaraq, faşizm Almaniya və İtaliya kimi iki dövləti yenidən doğmaqla və canlandırmaqla özünü təsdiqlədi..."

Elə eyni mətbu orqanın 19-21 avqust 1936-cı il sayında Almaniyadan ABŞ-yə yenicə qayıdan "Daşnaksütyun" təmsilçilərindən biri yazır: "Yəhudilər bütün xalqlardan daha millətçidirlər və öz irqlərinin təmizliyi üçün fanatikcəsinə mübarizə aparırlar.




...Bəzən bu zəhərli elementlərdən xilas olmaq çox çətin görünür. Onlar xroniki xəstəliklər kimi daha dərində gizlənirlər. Bu zaman hansısa xalq onları ənənəvi olmayan üsullarla qırmağa başlayır və bu üsullar inqilabi üsullar kimi qəbul olunur. Cərahiyyə əməliyyatları zamanı qanın axması adi məsələdir. Belə vəziyyətlərdə diktatura xilaskar rolunda çıxış edir".

Ermənilərin irqi-dini təlimatlarının müəllifi, Ermənistanın paytaxtında "şərəfinə" 6 metr hündürlükdə abidə ucaldılan muzdlu, faşist Qaragin Njde ingilisdilli "Ayrenik Uikli"nin 10 aprel 1936-cı il tarixli sayında yazır: "Təmiz irqli insan öz təmiz qanının ilahi təbiətinə inanır. İrq hər şeydən üstündür və yüksəkdə dayanır. İrq birinci yerdədir. Hər şey irq üçün. İrqi-dini təlimatlara görə, təmiz qanlıların eyni inamı, eyni rəhbərliyi, eyni siyasi rəmzləri var. Təmiz qanlı insanların öz geyimi, öz himni, öz adətləri, öz bayramları olacaq...

Bu gün Almaniya və İtaliya ona görə güclüdürlər ki, millət olaraq öz irqlərinin maraqları ilə nəfəs ala və onu sevə bilirlər".

Qaragin Njde Hitlerin gənclərə xitabən dediyi şüarlardan birinin sözlərinin yerini dəyişərək, erməni gəncliyinin tərbiyəsi üçün daha sərt, daha amansız faşizm modelini seçmişdi: "Gənclik, ürək və dəmir". Njde, Mandalyan, Darbinyan və digər faşist ideoloqlarının ardıcılları olan erməni gəncləri öncə "irqçi vətənpərvərlər" adlandırılırdılar, sonra isə faşist cəlladları onlara "Seqakron" - "İrqçi inanclılar" adını verdilər...

Almaniyanı birləşdirən Otto fon Bismarkın "Qan və dəmir" şüarını mənimsəyərək, onu "Qan və qürur" kimi təqdim edən Alfred Rozenberqin faşizm ideyaları, bu ideyalardan bəhrələnərək, "Gənclik, qan və dəmir" irqçi tezisi ilə dünyanı qana bürüyən Adolf Hitlerlə "Gənclik, ürək və dəmir" adlı "irqçi inanclılar" modelini seçən erməni ifrat millətçiləri arasında hər hansı bir fərqin olmadığını sezmək, qənaətimə görə, bir o qədər də çətin deyil. Bu baxımdan XX əsrin sonlarından, SSRİ-nin zəifləməsi və süqutundan başlayaraq, erməni ifrat millətçiliyinin öz qanlı dişlərini qıcayaraq yenidən dirçəlməsi, özünə türkləri, "Rusiya tatarları"nı, yəhudiləri hədəf seçməsi təsadüfi deyildi və o, növbəti dəfə əlinə düşən "əlverişli imkan"dan yararlanaraq, faşizmin "yarımçıq qalan işini" başa çatdırmaq üçün öncə Cənubi Qafqazı, daha sonra isə bütün dünyanı qana bürümək niyyəti güdürdü. Lakin bu proses Azərbaycan dövlətçiliyinin inkişafı, iqtisadi, hərbi və diplomatik müstəvidə seçilən strategiya, həyata keçirilən ardıcıl siyasəti nəticəsində, bu dəfə sadəcə iflasa uğramadı, məhv edildi, ayaqlar altına atıldı.

Şübhə etmirəm ki, zaman keçəcək, bölgə xalqları, bütövlükdə isə bəşəriyyət Azərbaycan xalqının və ordusunun Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə apardığı müqəddəs müharibənin əhəmiyyətini daha dərindən başa düşəcəklər.

Biz illər uzunu düşüncəmizə, ruhumuza, bütövlüyümüzə qənim kəsilən, bizi əzən, aşağılayan, özümüz olmağa qoymayan Qarabağ böyüklükdə məğlubiyyəti məğlub etmişik!

Biz haqqımızı yeyən, gözümüzün içinə yalan və böhtan püskürən, yüz minlərlə soydaşımızı doğma yurdunun havasına, suyuna həsrət qoyan "üçbaşlı əjdaha"ları yenmişik.

Biz xeyrin şər, işığın qaranlıq üzərində zəfərinin mümkünlüyünü unutmuş, yadırğamış, hiyləgər, satqın, dönük və riyakar dünyaya və bu dünyanın ədalətsiz düzənindən əzab çəkən, sarsılan hər kəsə haqqın birüzlü və ləyaqətli qalib obrazını təqdim etməyi, nümunə göstərməyi bacarmışıq.

Ədalət hissini itirmiş, hiyləgər, məkrli düşmənlərin bitib-tükənməyən tələlərindən sıyrılaraq dünya hərb tarixinə qızıl hərflərlə yazılan qəhrəmanlıq salnaməsini yazmaq sadəcə iti zəka, strateji düşüncə deyil, Vətəninə və xalqına nəhayətsiz sevgi, ideallarına sonsuz sədaqət, milli iradəyə söykənən qətiyyət və xalqını bir yumruq kimi birləşdirmək, səfərbər etmək bacarığı tələb edir. Bu baxımdan Prezident İlham Əliyev böyük bir coğrafiyada zülmə məruz qalan, haqqı tapdanan, öz tarixi vətəninə, ana südü kimi halal torpağına, tarixinə, mədəniyyətinə və gələcəyinə sahiblənmək istəyən bütün xalqlar üçün liderlik nümunəsidir.

***Elçin MİRZƏBƏYLİ,***
***Milli Məclisin deputatı***